UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.1.363

TÜRKANƏ ƏSGƏROVA *

# NAXÇIVAN MİLLİ NƏFƏS ALƏTLƏRİNİN İNKİŞAFINDA İNTİQAM RZAYEVİN ROLU

*Məlum olduğu kimi, Naxçıvan torpağı çox qədim dövrlərdən inkişaf etməyə başlayan zəngin musiqi mədəniyyətinə malikdir. Naxçıvanda nəfəs alətlərini daim təbliğ etdirməyə, geniş bir məkanda tanıtmağa cəhd edən musiqiçilər Naxçıvan musiqisinin inkişafı yolunda əllərindən gələni əsirgəməmişlər. Qədim musiqi alətləri xalqımızın tarix, mədəniyyət və mənəviyyat abidəsidir. Unudulmuş abidələri bərpa etmək, onları yenidən həyata qaytarmaq həm də tarixin qaranlıq səhifələrini işıqlandırmaq deməkdir. Təqdim olunan məqalənin yazılmasında da başlıca məqsəd Naxçıvanda doğulub boya-başa çatmış və Naxçıvan musiqi mədəniyyətinin inkişafında layiqli xidmətləri olmuş musiqiçiləri Naxçıvan musiqi ictimaiyyətilə yaxından tanış etmək və onlara bu sənət adamları haqqında əldə olan məlumatları çatdırmaqdır. Elə bu məqsədlədə İntiqam müəllimin həyat və fəaliyyəti qısa şəkildə yada salınaraq milli nəfəs musiqi alətlərinin təbliği istiqamətində gördüyü işlər öz əksini tapır.*

**Açar sözlər:** *Naxçıvan, İntiqam Rzayev, nəfəs alətləri, musiqi,*

**Giriş**

Naxçıvan torpağının yetirməsi olan bir sıra musiqiçilər incəsənətin inkişafında mühüm xidmətlər göstərmişlər. Belə musiqiçilərdən biri də Naxçıvan musiqi sənətində özünün xüsusi dəst-xətti ilə seçilən nəfəs musiqi alətləri ifaçısı İntiqam Rzayevdir. İntiqam müəllim ömrünün 33 ilini bu sənətə bağlayıb və bu müddətdə bir çox şagirdlər yetişdirib. Naxçıvan incəsənətində, nəfəs musiqi alətlərinin inkişaf etdirilməsində və təbliğ olunmasında İntiqam Rzayevin rolu həqiqətən danılmazdır. Xalq arasında belə bir söz var: "sənətkar var el üçündür, sənətkar var ev üçündür". "Ev sənətkarı" burada məcazi mənada işlədilir, yəni o, hansısa kiçik bir mahalın, bölgənin sənətkarı, dar çərçivədə fəaliyyət göstərən ifaçısıdır. El sənətkarı isə böyük bir xalqın mədəniyyətini təmsil edən, onu tanıdandır. İntiqam Rzayevdə belə musiqiçilərdən biridir.

**Əsas məzmun**

**İntiqam Əbülfəz oğlu Rzayev** – 1 May 1971-ci ildə Naxçıvan şəhər Şərur rayon (indiki Kəngərli rayon) Şahtaxtı kəndində musiqiçi ailəsində dünyaya göz açıb. Atası Əbülfəz Rzayev sazda mükəmməl ifa edirdi. Qeyd etmək lazımdır ki, Naxçıvanda Aşıq Əbülfəz tanınmış aşıqlardan biri idi. İntiqam Rzayev 1979-1987-ci illərdə Şahtaxtı kənd tam orta məktəbində təhsil alıb. Uşaq yaşlarından onun musiqi qabiliyyəti və musiqi aləminə olan böyük marağı bir çoxlarının diqqətini cəlb etmişdi. O, artıq kiçik yaşlarından tütək çalmağı öyrənərək bu alətdə sərbəst ifa edə bilirdi. Hələ uşaq yaşlarından nəfəs alətlərinə böyük maraq göstərdiyinə görə atası 1982-ci ildə onun sənətlərini Qıvraq kənd uşaq musiqi məktəbinə klarnet ixtisası üzrə verir. 1987-ci ildə isə o, musiqi məktəbini biitirərək Gəncə şəhər Qənbər Hüseynli adına orta ixtisas musiqi məktəbinə sənət verir və klarnet ixtisası üzrə daxil olur. 1991-ci ildə oranı bitirərək doğma şəhəri olan Naxçıvana qayıdır və Qıvraq kənd Musiqi məktəbində klarnet ixtisası üzrə müəllim işləyir. 1991-ci ilin dekabr ayında həqiqi hərbi xidmətə çağrılır. 1993-cü ildə 705 saylı hərbi hissədə əsgərlərdən ibarət "Hərbi orkestr" yaradılır və İntiqam Rzayev bu orkestrdə ilk musiqiçi əsgər olaraq kiçik çavuş, çavuş və baş çavuş rütbəsi ilə təltif olunur. Qeyd etmək lazımdır ki, İntiqam Rzayev 5 il əsgər kimi həqiqi hərbi xidmətdə olub. 1996-ci ildə hərbi xidmətini başa vurduqdan sonra elə həmin il müddətdən artıq hərbi qulluqçu kimi "Hərbi orkestrdə" baş təlimatçı musiqiçi vəzifəsində çalışıb. 23-26 may 1999-cu ildə Türkiyənin Qars şəhərində "Kara küvvətləri komutanlığı 7-ci mekanize piyade Tuğay Komutanlığı"nda konsert proqramı ilə çıxış etdiyinə görə Tuğay Komutanı, Tuğgeneral Cihangir Dumanlı tərəfində təşəkkürnamə almışdır. 2006-2007-ci illərdə isə Şahbuz rayon N hərbi hissəsində orkestr rəyisi vəzivəsində çalışmışdır.



2007-ci ildə ordu sıralarından ehtiyata buraxıldıqdan sonra yenidən müəllim kimi əmək fəaliyyətini davam etdirərək Naxçıvan şəhər Kəngərli rayon Çalxanqala kənd Uşaq musiqi məktəbində klarnet və balaban ixtisasları üzrə müəllim işləyir. İntiqam Rzayevin şagirdləri demək olar ki, hər il keçirilən müsabiqələrdə mütəmadi olaraq iştirak edirlər, 7 may 2018-ci ildə "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdləri və Naxçıvan Musiqi Kollecinin tələbələrinin Muxtar Respublika müsabiqəsi"ndə qalib gəldiyinə görə Kəngərli Rayon Çalxanqala Kənd Uşaq Musiqi Məktəbinin balaban ixtisası üzrə II sinif şagirdi Məmmədov Əli Kəyan oğlu II dərəcəli diplom, 23 iyun 2021-ci ildə isə "Uşaq və gənclər arasında keçirilən Muxtar Respublika ifaçılıq müsabiqəsi"ndə balaban nominasiyası üzrə II yaş qrupunda I yerin qalibi olaraq diplomla təltif edilib.



20 iyun 2023-cü ildə "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş Muxtar Respublika ifaçılıq müsabiqəsi"ndə qalib gəldiyinə görə Çalxanqala kənd Uşaq Musiqi məktəbinin balaban ixtisası üzrə şagirdi Abdullayev İbrahim Bərzani oğlu II dərəcəli, Məmmədli Elnur Vüsal oğlu II dərəcəli , Əsgərov Əli Qərib oğlu isə III dərəcəli diploma layiq görülüblər.

2 iyul 2024-cü ildə isə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyinə həsr olunmuş "Naxçıvan istedadları" İncəsənət Festivalında fərqləndiyinə görə Kəngərli rayon Çalxanqala kənd Uşaq Musiqi Məktəbinin balaban ixtisası üzrə şagirdi Abdullayev İbrahim Bərzani oğlu diplomla təltif olunub. Tezliklə Intiqam Rzayev əməksevərliyinə və işgüzarlığına görə işlədiyi kollektivin dərin rəğbətini qazanır və rəhbərlik tərəfindən müxtəlif diplom və fəxri fərmanlarla təltif olunur. İntiqam Rzayev 2018-ci ildə müəllimlik fəaliyyətində peşəkarlıq nümayiş etdirdiyinə görə fəxri fərmana, 27 may 2021-ci ildə Kəngərli rayon Çalxanqala kənd Uşaq Musiqi Məktəbinin direktoru B.Məmmədov tərəfindən I dərəcəli diploma, 29 noyabr 2022-ci ildə məktəbin direktoru Z.Yusifova tərəfindən gənc nəslin müstəqil həyata hazırlanmasında fəal iştirakına və üzərinə düşən vəzifəni layiqincə yerinə yetirdiyinə görə fəxri fərmana, 5 dekabr 2023-cü ildə isə "Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş müsabiqədə qazandığı nailiyyətlərə görə İntiqam Əbüilfəz oğlu Rzayev" direktor Z.Yusifova tərəfindən diplomla təltif olunmuşdur.



2022-ci ildə Çalxanqala kənd Uşaq musiqi məktəbində şagirdlərdən ibarət "Xalq çalğı alətləri" orkestri yaradılmışdır, orkestrin bədii rəhbəri və dirijoru İntiqam Rzayev idi. 18 sentyabr 2022-ci ildə "Musiqi günü" münasibəti ilə keçirilən konsert proqramında orkestr uğurla çıxış etmişdir.

5 noyabr 2022-ci ildə Kəngərli rayon Mədəniyyət Sarayında "Zəfər günü münasibəti ilə keçirilən konsert proqramında İntiqam Rzayev və şagirdləri ifa etmişdir. 2 fevral 2024-cü ildə "Gənclər günü" münasibəti ilə Çalxanqala kənd Uşaq musiqi məktəbinin müəllimlərindən ibarət Kəngərli rayon mədəniyyət sarayında konsert proqramı keşirilmişdir, İntiqam Rzayev və şagirdləri həmin konsertdə uğurla çıxış etmişlər. "23 may 2024-cü ildə Kəngərli rayon Çalxanqala kənd Uşaq musiqi məktəbinin kollektivi və İntiqam Rzayev Naxçıvan televiziyasının dəvəti ilə "Günaydın" verlişində çıxış etmişdir.

21-22-23 iyun 2024-ci ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Batabat yaylağında keçirilən "Qərbi Azərbaycana qayıdış" festivalında İntiqam Rzayev balaban və zurna nəfəs alətlərində ifa edərək qonaqların rəğbətini qazanmışdır.

29 noyabr 2024-cü ildə Çalxanqala kənd Uşaq musiqi məktəbinin müəllim kollektivi Şərur rayon mədəniyyət sarayında keçirilən Aşıq Nabat Cavadovanın 110 illik yubileyində iştirak ediblər.



19 dekabr 2024-cü ildə isə yenə Naxçıvan televiziyasının dəvəti ilə "Günaydın" verlişində iştirak edərək qədim nəfəs aləti olan balaban haqqında məlumat vermiş və şagirdi Abdullayev İbrahim ilə birgə balaban alətində ifa etmişdir.



**Nəticə**

Onuda xüsusilə qeyd etmək lazımdır ki, İntiqam Rzayev 1-ci Qarabağ müharibəsinin iştirkçısı kimi "Azərbaycan Respublikasının Müharibə Veteranı" adına layiq görülmüşdür. Onun şəxsi arxiv materialları çoxşaxəli yaradıcılığı kimi xüsusi dəsti-xətti ilə müxtəlif çalışmaları (tütək, balaban, zurna, klarnet və s.), ifaçılıq sənətindəki yenilikləri ilə zəngindir. İntiqam müəllim milli nəfəs aləti

balabandan başqa tütək, zurna, klarnetdə də eyni məharətlə ifa edir. O, tütək, zurna, balaban və klarnet alətlərini gənclərə sevdirərək, gələcək nəsillərə çatdırılması üçün hər zaman səylə çalışıb və yəqin bundan sonra da çalışacaq ki, illər ötsə də belə bu sənətə olan maraq azalmasın. Biz də qədim nəfəs musiqi alətlərimizi heç zaman unutmamalıyıq. Bu alətlər ulu babalarımızdan bizə qalan qiymətli milli dəyərlərdən biridir. Gəlin çalışaq ki, toylarımız qara zurnasız, balabansız olmasın. Bu işdə hamımız əlbir olaq və hər yerdə hər zaman nəfəs musiqi alətlərimizi təbliğ edək.

## ƏDƏBİYYAT

1.A.Nəcəfzadə. Azərbaycan nəfəs alətləri (orqanoloji-tarixi tədqiqat), dissertasiya işi. Bakı Musiqi Akademiyasının kitabxanası, 186 s.
2.F.Şuşinski. Azərbaycan xalq musiqiçiləri. B.: Yazıçı, 1985. 7. Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıqorqanoloji tədqiqat). B.: Adiloğlu, 2002.
3.R.Kərimov. Naxçıvan musiqi mədəniyyəti tarixindən. Bakı; Azərnəşr - 2012

***Naxçıvan Dövlət Universiteti**
***E-mail: rvaturkane@gmail.com***

**Turkana Askerova**

## THE ROLE OF INTIGAM RZAYEV IN THE DEVELOPMENT OF THE NATIONAL WIND INSTRUMENT SCHOOL IN NAKHCHIVAN

As is known, the land of Nakhchivan has a rich musical culture that began to develop from ancient times. Musicians who constantly tried to promote wind instruments in Nakhchivan and introduce them to a wide audience did not spare any effort for the development of Nakhchivan music. Ancient musical instruments are monuments of history, culture and spirituality of our people. Restoring forgotten monuments and bringing them back to life also means illuminating the dark pages of history. The main purpose of writing the presented article is to closely introduce the musicians who were born and raised in Nakhchivan and who have made worthy contributions to the development of Nakhchivan musical culture to the Nakhchivan music community and to provide them with the available information about these artists. For this purpose, the life and activities of teacher Intigam are briefly recalled, reflecting the work he has done in the direction of promoting wind musical instruments.

**Keywords:** *Nakhchivan, Intigam Rzayev, wind instruments, music,*

**Туркана Аскерова**

## РОЛЬ ИНТИГАМА РЗАЕВА В РАЗВИТИИ НАЦИОНАЛЬНОЙ ШКОЛЫ ДУХОВЫХ ИНСТРУМЕНТОВ В НАХИЧЕВАНЕ

Как известно, земля Нахичеване имеет богатую музыкальную культуру, развивающуюся с древних времен. Музыканты, которые постоянно пытаются пропагандировать духовые инструменты в Нахичеване и распространять их на широкой территории, не жалеют усилий для развития нахичеванской музыки. Старинные музыкальные инструменты – памятник истории, культуры и духовности нашего народа. Восстановить забытые памятники, вернуть их к жизни – это еще и значит осветить темные страницы истории. Основная цель написания представленной

статьи – познакомить музыкальную общественность Нахичевана с музыкантами, родившимися и выросшими в Нахичеване и внесшими вклад в развитие музыкальной культуры Нахичевана, и донести до них имеющуюся информацию об этих исполнителях. С этой целью кратко упомянуты жизнь и деятельность преподавателя Интигама и отражена проделанная работа по пропаганде духовых инструментов.

**Ключевые слова:** *Нахичеван, Интигам Рзаев, духовые инструменты, музыка,*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 15.02.2025**
**Son daxilolma tarixi:17.03.2025**